# X Qəbələ Beynəlxalq Musiqi Festivalı möhtəşəmliyi ilə yaddaşlarda qalacaq

## İsrailli pianoçuların maraqlı konserti

X Qəbələ Beynəlxalq Musiqi Festivalı musiqisevərləri daha bir maraqlı konsert proqramları ilə sevindirib.



Avqustun 2-də Heydər Əliyev Konqres Mərkəzi qapılarını öz tamaşaçılarının üzünə israilli musiqiçilərin iştirakı ilə təşkil olunan "Multipiano" musiqi axşamı ilə açıb.

Konsertin əvvəlində məlumat verilib ki, "Multipiano" İsrailin dörd virtuoz pianoçusunu birləşdirən özünəməxsus piano layihəsidir. İsrailin üç ən parlaq gənc pianoçusunun və onların rəhbəri - ölkənin ən görkəmli musiqiçilərindən biri Tomer Levin iştirak etdiyi "Multipiano" layihəsi fəaliyyətinin ilk illərindən beynəlxalq əks-sədaya səbəb olub.

Musiqi axşamında V.A.Motsartın "Largetto" və "Allegro", D.Şostakoviçin "Konsertino", S.Raxmaninovun "Romans" və "Vals", B.Smetananın "Sonata" və digər Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

İsrailli musiqiçilər Tomer Lev, Berenika Qliksman, Almoq Seqal, Ayal Peleq Pelk və Nimrod Natanel Meiry-Haftelin ifaçılıq məharəti tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**"Qəbələ"**

## Fəttah Heydərov:

«Bu il Qəbələ Beynəlxalq Musiqi Festivalı öz yubileyini, 10 yaşını qeyd edir. Əminliklə deyə bilərik, bu festival da uğurla davam edəcək. Çünki yarandığı gündən indiyədək festivalın əsas qayəsi insanları birləşdirmək, onları sülhə, əmin-amanlığa çağırmaq, Azərbaycanımıza qonaq dəvət etmək olub».

X Qəbələ Beynəlxalq Musiqi Festivalının açılış mərasimində jurnalistlərə müsahibəsində bu sözləri Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov deyib.

Qəbələ festivalında dünyanın bir çox ölkələrinin məşhur sənətkarlarının, musiqiçilərinin, tanınmış insanlarının iştirak etdiyini bildirən Fəttah Heydərov: "İndi Azərbaycanımız sülhün, əmin-amanlığın, inkişafın, insana, vətəndaşa xidmətin nümunəsi kimi, eləcə də özünün multikultu-



ral və tolerantlıq istiqamətində gördüyü işlərə görə artıq dünyanın hər yerindən görünür. Bu gün Qəbələmiz də dünyanın hər yerindən görünür. Bu onun nəticəsidir ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət artıq Azərbaycanı, onun insanlarını dünyada tanıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə başlanan bu gözəl festival çox böyük inkişaf yolu keçib. 10 il ərzində təkmilləşib, püxtələşib, insanlara xidmət edib, onları gözəl işlərə, inkişafa, tərəqqiyə, mədəniyyətə, sülhə çağırıb. Qəbələ festivalı hələ uzun illər yaşayacaq, Azərbaycanımızı dünyada tanıdacaq".

## Gənc muğam ifaçılarının səsi tamaşaçıları riqqətə gətirib

X Qəbələ Beynəlxalq Musiqi Festivalının proqramına daxil olan, qəbələlilərin səbirsizliklə gözlədikləri muğam axşamı avqustun 2-də saat 21-də Heydər Əliyev Konqres Mərkəzinin qarşısındakı açıq səhnədə tamaşaçılara təqdim olunub. Gənc muğam ifaçıları möhtəşəm ifaları ilə buraya toplaşan iki minə yaxın tamaşaçıya unudulmaz musiqi bayramı bəxş ediblər.

Konsertdə Heydər Əliyev Fondunun təşkil etdiyi Muğam-Televiziya Müsabiqəsinin iştirakçıları xanəndə Abgül Mirzəliyevin, Səbinə Ərəblinin və Kamilə Nəbiyevanın ifaları tamaşaçılar




tərəfindən alqışlarla qarşılanıb.

**"Qəbələ"**

## Əbülfəs Qarayev:

"Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivallarına tamaşaçılar tərəfindən göstərilən diqqət və maraq ildən-ilə artmaqdadır. İlk illərdə bu təşəbbüs irəli sürüləndə kimsə düşünmürdü ki, dünya musiqisi cədvəlində Qəbələ adı belə möhkəm həkk olunaraq böyük tamaşaçı auditoriyasının diqqətini çəkəcək".

Bu sözləri festivalın açılış mərasimində jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev deyib.

Nazir qeyd edib ki, ötən illər ərzində şəxsən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın himayəsi, dəstəyi və təşkilatçılığı sayəsində dünya miqyasında tanınmış musiqi kollektivləri Qəbələyə gəlib.

"Hesab edirəm ki, bu, öz-öz-



lüyündə bir göstəricidir. İlbəil genişlənən beynəlxalq auditoriya məhz Qəbələyə mədəni turizm axınını gücləndirir və bu, bizi olduqca sevindirir", - deyə Əbülfəs Qarayev bildirib.

## "Baku Chamber Orchestra" kamera orkestrinin konserti



Avqustun 3-də Heydər Əliyev Konqres Mərkəzində keçirilən konsertdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Baku Chamber Orchestra" kamera orkestri tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış edib.

Konsertdə İ.S.Baxın "İki fortepiano və kamera orkestri üçün konsert", A.Piazzollanın "Buenos-Ayresdə ilin fəsilləri", "Yay", Y.G.Bendanın "Grave", T.Quliyevin "Qaytağı", P.İ.Çaykovskinin "Simli orkestr üçün Serenada" əsərləri səsləndirilib. Fuad İbrahimovun dirijorluğu ilə keçən konsertdə Xalq artistləri, pianoçular Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə, Yeganə Axundova, həmçinin Ziba Rəcəbli (viola) və Nəzrin Aslanlı (violin) çıxış ediblər.

**"Qəbələ"**

## Azərbaycan və Macarıstan musiqiçilərinin virtuoz çıxışı

Avqustun 3-də axşam saatlarında Heydər Əliyev



Konqres Mərkəzinin zalında tamaşaçılara növbəti konsert proqramı təqdim olunub. Musiqisevərlərin qarşısında bu dəfə Macarıstandan gəlmiş "Budapeşt Gypsy Band" və Azərbaycanın "Qaytağı" instrumental ansamblları çıxış edib.

"Budapeşt Gypsy Band" qrupunun üzvləri Macarıstanda yaxşı tanınan musiqiçilərdir. Kollektivin üzvləri nüfuzlu orkestrlərin tərkibində dünyanın bir çox ölkələrinin konsert salonlarında çıxış ediblər.



Konsertdə Azərbaycanın xalq artisti, virtuoz qarmon ifaçısı Ənvər Sadıqovun rəhbərliyi ilə "Qaytağı" instrumental ansamblının çıxışı da tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. İfaçını pianoda beynəlxalq müsabiqə və festivalların qalibi Emil Əfrasiyab müşayiət edib.

**"Qəbələ"**